Azərbaycan Respublikası səhiyyə nazirinin müavini, Respublikanın baş dövlət sanitariya həkiminin 2021-ci il 20 iyul tarixli 2 nömrəli qərarı ilə **təsdiq edilmişdir**

# ŞƏNLİK MƏRASİMLƏRİNDƏ KORONAVİRUS İNFEKSİYASININ (COVID-19) İDARƏ OLUNMASINA DAİR

# METODİKİ GÖSTƏRİŞLƏR

## GİRİŞ

Sənəd nişan, toy və digər şənlik mərasimlərində (bundan sonra "şənlik mərasimləri") çalışan əməkdaşların və qonaqların sağlamlığının qorunması məqsədi ilə hazırda koronavirus (COVID-19) infeksiyasına dair aparılan elmi araşdırma faktlarına və bu infeksiyaya qarşı aparılan mübarizədə əldə olunmuş təcrübələrə əsaslanaraq tərtib olunub. Mövcud olan məlumatlara əsasən COVID-19 insanlar arasında birbaşa təmas, hava-damcı yolu ilə və ya dolayı yolla viruslarla çirklənmiş səthlərə təmasdan sonra əllərlə ağız boşluğuna, gözlərə, buruna və s. toxunduqda ötürülür.

Bir çox hallarda yoluxmuş insanlarda xəstəliyin gedişatında yüngül simptomlara rast gəlinir, lakin yaşlı və/və ya yanaşı xəstəliyi olan yoluxmuş insanlarda kəskin ağırlaşmalar müşahidə olunur.

Xəstəliyin profilaktik tədbirlərinə əl gigiyenası, fiziki məsafənin saxlanması, gözlərə, ağız boşluğuna, buruna toxunulmaması və tənəffüs gigiyenası aid edilir. İctimai yerlərdə ortaq istifadə edilən səthlərin mütəmadi təmizlənməsi və dezinfeksiya edilməsi, qapalı yerlərin havasının dəyişdirilməsi xəstəliyə yoluxma riskini azaldır.

## 1. ÜMUMİ GÖSTƏRİŞLƏR

1.1. Şənlik mərasimi keçirilən məkanlara olan tələblər

1.1.1. şənlik mərasimi keçirilən məkanların sahəsinə və müəyyən olunmuş "İctimai iaşə müəssisələrində koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair Metodiki Göstərişlər"ə uyğun olaraq hər bir zal üzrə qonaq tutumunun yenidən müəyyənləşdirilməsi, həmin tutuma və yol verilən maksimum qonaq sayına uyğun olaraq şənlik mərasiminin keçirilməsinə icazə verilməsi;

1.1.2. şənlik keçirilən məkanların saat 00:00-dək fəaliyyət göstərə bilməsi;

1.1.3. gigiyena və təmizlik, fiziki məsafənin qorunması və digər məsələlərlə bağlı tələbləri əks etdirən lövhələrin məkanların girişlərində və zallarda yerləşdirilməsi;

1.1.4. girişlərdə, ümumişlək yerlərdə və sanitar qovşaqlarda əl dezinfektantları üçün nəzərdə tutulmuş dispenserlərin yerləşdirilməsi, masalarda əl üçün antiseptik məhlulların olması;

1.1.5. girişlərdə müəyyən olunmuş əməkdaşlar tərəfindən qonaqların təmassız termometrlərlə hərarətinin ölçülməsi və hərarəti olan qonaqların içəri buraxılmaması;

1.1.6. təmizlik və dezinfeksiya işlərinə xüsusi diqqət yetirilməsi, ümumişlək yerlərin mütəmadi təmizlənməsi, mərasimdən sonra zalların tam dezinfeksiya edilməsi və havalandırılması;

1.1.7. xidmət edən personalın gigiyena qaydalarına riayət etməsi, COVID-19-a xas olan əlamət(ləri) hiss edən (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) əməkdaşların işə buraxılmaması;

1.1.8. xidmət edən personalın növbəli iş rejimində eyni tərkibdə fəaliyyət göstərməsi;

1.1.9. şənlik mərasimi keçirilən məkanların mətbəxlərində "İctimai iaşə müəssisələrində koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair Metodiki Göstərişlər"də müəyyən olunmuş qaydalara riayət edilməsi;

1.1.10. şənlik mərasimində xidmət göstərən heyətin (musiqiçilər istisna olmaqla) tibbi maskalardan, əlcəklərdən və digər fərdi qoruyucu vasitələrdən istifadəsi etməsi.

~~1.2. 50 nəfərə qədər şəxsin iştirakı ilə təşkil olunan şənlik mərasimlərinin keçirilməsi "İctimai iaşə müəssisələrində koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair Metodiki Göstərişlər" ilə tənzimlənir.~~ [(1)]

1.3. ~~50 nəfərdən~~ 150 nəfərə qədər şəxslərin iştirakı ilə təşkil olunan şənlik mərasimlərinə münasibətdə: [(2)]

1.3.1. yaşı 18-dən yuxarı olan şəxslərin iştirakına yalnız COVID-19-a qarşı "peyvənd sertifikatı"na və ya COVID-19-a qarşı "immunitet sertifikatı"na (bundan sonra - COVID-19 pasportu) sahib olduqları halda icazə verilməsi;

1.3.2. 2021-ci il iyulun 1-dən etibarən şənlik mərasimlərinin keçirildiyi məkanlarda işçilərin azı 80 faizinin COVİD-19-a qarşı birinci doza peyvənd olunması və ya COVID-19-a qarşı immunitet sertifikatına malik olması, 2021-ci il 1 avqust tarixindən etibarən isə COVİD-19 pasportunun olması;

1.3.3. dəvətnamələr üzərində COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanın vacibliyi barədə xatırlatmanın qeyd edilməsi və ya qonaqlara müəyyən olunmuş tələblərə dair yaddaş vərəqələrinin göndərilməsi;

1.3.4. şənlik mərasimləri keçirilən məkanın və ya müəssisənin sahibi tərəfindən həmin obyekt daxilində fəaliyyət göstərən tədbir zalları, onların tutumu və çalışan əməkdaşlar (müvəqqəti işə cəlb edilmiş işçilər daxil olmaqla) barədə məlumatın "icaze.e-gov.az" daxil edilməsi;

1.3.5. şənlik mərasimləri keçiriləcək tədbirin tarixinə ən azı 5 gün qalmış tədbirin keçirilmə tarixi, başlama və bitmə vaxtı, qonaq sayı barədə məlumat "icaze.e-gov.az" portalında qeyd edilməsi;

1.3.6. şənliklərin təşkili və keçirilməsində karantin rejiminin qaydalarının tətbiq edilməsi ilə bağlı şənlik və məkan sahibi arasında müştərək məsuliyyət barədə iltizamnamə imzalanmaası və həmin iltizamnamənin nüsxəsinin məkan sahibi tərəfindən "icaze.e-gov.az" portalına daxil edilməsi;

1.3.7. şənliyə dəvət olunan şəxslərin COVID-19 pasportunu e-Təbib mobil tətbiqi vasitəsilə yüklənmiş elektron və ya çap edilmiş nüsxəsini təqdim etməsi;

1.3.8. monitorinq zamanı səmərəliliyi təmin etmək məqsədi ilə COVID-19 pasportuna malik olan əməkdaşların həmin pasportun nüsxəsinin üzərilərində gəzdirməsi (e-Təbib mobil tətbiqində və ya çap edilmiş nüsxə, döş nişanı/bədc və digər formalarda);

1.3.9. tələblərin icrasını nəzarətdə saxlamaq məqsədi ilə gündəlik monitorinqlərin keçirilməsi.

## 2. TƏMİZLİK-DEZİNFEKSİYA İŞLƏRİ VƏ İŞÇİ HEYƏTİN ŞƏXSİ GİGİYENASI

2.1.Həyata keçirilən təmizlik-dezinfeksiya işləri xidmətin növü, təmas edilən səthlərin xüsusiyyətləri, təmizlik-dezinfeksiya qaydaları nəzərə alınmaqla və müxtəlif təmizlik vasitələrindən istifadə etməklə aparılır. Təmizlik-dezinfeksiya işləri iş saatı ərzində qonaqlar daxil olmazdan əvvəl işlək sahələrdə, iş saatlarından sonra isə bütün sahələrdə həyata keçirilməlidir.

2.2. Təmizlik-dezinfeksiya işləri həyata keçirilərkən aşağıdakı ardıcıllığa riayət edilməlidir:

2.2.1. mexaniki təmizləmə: quru çirklər və tullantılar səthlərdən və məkandan uzaqlaşdırılmalı;

2.2.2. təmizləmə: isti su və lazımi hallarda yuyucu vasitələrdən istifadə etməklə həyata keçirilməli;

2.2.3. durulama: istifadə edilmiş yuyucu vasitə qalıqlarının səthdən tamamilə uzaqlaşdırılması məqsədilə isti sudan istifadə edilməli;

2.2.4. dezinfeksiya: istifadəsinə icazə verilən dezinfeksiyaedici maddələr istifadə təlimatına uyğun olaraq tətbiq edilməlidir.

2.3. Dezinfeksiyaedici maddələrdən istifadə zamanı diqqət yetirilməli məqamlar:

2.3.1. istifadə təlimatında qeyd edilmiş yararlılıq müddəti və istifadə qaydası mütləq nəzərə alınmalı;

2.3.2. lazım olan konsentrasiyadan (qatılıq) artıq istifadə edilməməli;

2.3.3. digər şəxslərin yanlış istifadəsinin qarşısını almaq məqsədilə dezinfeksiyaedici məhlul hazırlandıqdan sonra qablaşdırma üzərində tərkibi və hazırlanma tarixi barədə qeyd yazılmalı ;

2.3.4. dezinfeksiya işlərinin aparılması tezliyi planlaşdırılmalı və rəsmiləşdirilməli;

2.3.5. dezinfeksiya işlərini həyata keçirən işçi heyət xüsusi qoruyucu vasitələrlə (əlcək, maska, üz sipəri və s.) mütləq təmin edilməli;

2.3.6. dezinfeksiya işlərinin həyata keçirildiyi qapalı sahə bu işlər başa çatdıqdan sonra havalandırılmalı;

2.3.7. dezinfeksiyaedici maddələrin istifadə təlimatında qeyd edilən səth üzərində tövsiyə olunan qalma müddətinə ciddi riayət edilməli.

2.4. Dezinfeksiya edilməsi vacib olan sahələr və tövsiyə edilən dezinfeksiya maddələri:

2.4.1. giriş-çıxışlardakı ayaqaltlıqlar (xlor tərkibli məhlul və ya digər);

2.4.2. qapı və qapı tutacaqları (spirt tərkibli məhlul və ya digər);

2.4.3. şəxsi əşyaların saxlanılması üçün nəzərdə tutulan dolablar və onların tutacaqları (spirt tərkibli məhlul və ya digər);

2.4.4. döşəmələr (xlor tərkibli məhlul və ya digər);

2.4.5. qonaqların toxunduğu səthlər (spirt tərkibli məhlul və ya digər);

2.4.6. soyuducuların tutacaqları (spirt tərkibli məhlul və ya digər);

2.4.7. sanitar qovşaqlar (xlor tərkibli məhlul və ya digər);

2.4.8. anbarlar (xlor tərkibli məhlul və ya digər);

2.4.9. tullantıların yığıldığı sahələr (xlor tərkibli məhlul və ya digər);

2.4.10. tullantı qabları (spirt tərkibli məhlul və ya digər);

2.4.11. ödəniş terminalları (spirt tərkibli məhlul və ya digər).

2.5. İşçi heyətin şəxsi gigiyenası:

2.5.1. şəxsi gigiyena qaydalarına riayət edilməli, işə başlamazdan, tullantılarla təmasdan, təmizlik işlərindən, sanitar qovşaqdan istifadədən, asqırma və öskürmədən, pulla təmasdan, siqaret çəkdikdən sonra əllərini təmiz yumasına  və ya dezinfeksiya nəzarət edilməlidir;

2.5.2. qida məhsulları ilə təmas edərkən saçları qapalı saxlayan baş örtükləri və əlcəklərdən istifadə edilməlidir;

2.5.3. əlcəklər çirkləndikdə və tamlığı pozulduqda, həmçinin iş növbələri arasında dəyişilməlidir.

2.6. Tibbi maskalardan ümumi istifadə qaydaları:

2.6.1. işçi heyətin (musiqiçilər istisna olmaqla) maskadan istifadəsi məcburidir;

2.6.2. maskalar ağız və burun nahiyəsini səliqəli örtməklə, üz və maska arasındakı boşluqları minimuma endirmək şərti ilə taxılmalıdır;

2.6.3. istifadə zamanı maskanın ağızla təmasda olan hissəsinə toxunulmamalıdır;

2.6.4. maska çıxarılan zaman müvafiq texnikaya əməl edilməlidir (maskanın ön hissəsinə toxunmaq olmaz, arxa hissəsindəki ipləri vasitəsilə çıxarılmalıdır);

2.6.5. maskanı çıxardıqdan sonra əllər spirtlə təmizlənməli, yaxud sabun və su ilə təmiz yuyulmalıdır;

2.6.6. maska çirkləndikdə və ya nəmləndikdə dəyişdirilməlidir;

2.6.7. birdəfəlik maskalardan təkrar istifadə edilməməlidir;

2.6.8. birdəfəlik maskaların istifadəsindən sonra onların zərərsizləşdirilməsi və kənarlaşdırılması təmin edilməlidir.

2.7. Əllərin gigiyenasına dair tövsiyələr:

2.7.1. əllərinizi axar su ilə isladın və sabunu əllərinizə sürtün;

2.7.2. əllərinizi sabunla birlikdə ovuşdurun. Barmaqların və dırnaqların arasını yaxşı sabunlayın;

2.7.3. sabunlu əllərinizi ən azı 20 saniyə ovuşdurun;

2.7.4. əllərinizi axar suyun altında mükəmməl durulayın;

2.7.5. əllərinizi təmiz salfetlərlə qurudun;

2.7.6. sabun və ya su istifadəsi mümkün olmadıqda, etanol (spirt) tərkibli dezinfeksiyaedici məhlullardan istifadə edin.

## 3. İŞÇİ HEYƏTİN MÜAYİNƏSİ

3.1. İş zamanı özündə COVID-19-a xas olan əlamət(ləri) hiss edən işçi (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) dərhal işini dayandırmalı, tibbi maska ilə təmin olunaraq qapalı otaqda təcrid izolyasiya edilməlidir. Həmin şəxsə tibbi xidmətin göstərilməsi üçün 103 TTTY xidmətinə müraciət edilməlidir;

3.2. İşə gəlməzdən əvvəl özündə COVID-19-a spesifik olan əlamət(ləri) hiss edən işçi (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) rəhbərinə xəbər verərək evdə özünütəcrid etməli və tibbi xidmətin təmin olunması məqsədi ilə 103 TTTY xidmətinə müraciət etməlidir;

3.3. COVID-19-a xas olan əlamət(ləri) hiss edən işçi (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) xəstəlik əlaməti müşahidə olunan işçilərin işə buraxılmasına görə məsuliyyəti ictimai-iaşə müəssisəsinin rəhbərliyi daşıyır;

3.4. Xəstəlik əlaməti olan işçinin iş yeri dezinfeksiya edilməlidir;

3.5. Həmin işçidə laborator üsul ilə COVID-19 təsdiqləndiyi halda, onunla təmasda olan şəxslər Səhiyyə Nazirliyinin gigiyena və epidemiologiya mərkəzlərinin mütəxəssisləri tərəfindən müəyyənləşdirilərək yaşadıqları yerdə karantin nəzarətinə götürülməlidirlər.

## METODİK GÖSTƏRİŞLƏRƏ EDİLMİŞ DƏYİŞİKLİKLƏRİN SİYAHISI

[(1)] 2 sentyabr 2021 -ci il tarixli Səhiyyə nazirinin müavininin 3 nömrəli Qərarı ilə bənd ləğv edilmişdir.

[(2)] 2 sentyabr 2021-ci il tarixli Səhiyyə nazirinin müavininin 3 nömrəli Qərarı ilə “50 nəfərdən” sözləri çıxarılmışdır.